# "İmzalar içində imzamızın olmasına çalışıram"

"Uşaq vaxtı anam əlimdən tutub məni tez-tez dəniz kənarına aparardı. Xəzərin gah susub, gah da danışan ləpələrinə saatlarla tamaşa edərdik. Mənə elə gəlirdi ki, anam dəniz kənarına Xəzərlə söhbətləşmək üçün gəlir. Hərdən dəli dalğalar kükrəyib şahə qalxanda anama sığınıb deyərdim ki, gedək buradan, deyəsən, burada olmamız dənizi əsəbiləşdirir".



Günel onu da deyir ki, xalqımızın ruhunu, milli-mənəvi dəyərlərini anamın mənə danışdığı nağıllardan öyrənmişəm. "Anam da, bacım da filoloqdur. Hər gün anam mənə nağıl danışmasaydı, yata bilməzdim. Xalqımızın mənəvi xəzinəsinə bələd olduqca qəlbimdə ədəbiyyatçı olmaq arzusu pərvazlanırdı. Anamın "Koroğlu" dastanındakı qəhrəmanlıq nəğmələrini həzin laylaya çevirib oxumasını çox sevərdim. "Gizir oğlu Mustafa bəy" nəğməsi ruhuma hakim kəsilmişdi.

Uşaqlığımın necə keçdiyini heç özüm də bilmədim. Bir də gördüm ki, filoloq olmuşam".

Günel sanki danışmırdı. Xəzərin saf suları kimi pıçıltılı bir nəğmə oxuyurdu. Keçmişini bu gününə calayırdı...

Günel Əhmədova 1997-ci ildə Bakıda anadan olub. Səbail rayonundakı 162 nömrəli tam orta məktəbi bitirdikdən sonra Bakı Slavyan Universitetinin Azərbaycan filologiyası və jurnalistika fakültəsində filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə təhsil alıb. 2018-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra 2018-2020-ci illərdə Bakı Slavyan Universitetində Azərbaycan ədəbiyyatı ixtisası üzrə magistratura təhsili alıb. 2021-ci ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid" ixtisası üzrə doktoranturaya qəbul olunan gənc filoloq həmin il AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində əmək fəaliyyətinə başlayıb. Respublikamızda və xaricdə bir çox elmi konfransda iştirak edən gənc ədəbiyyatçının nüfuzlu elmi jurnallarda 30-dan çox məqaləsi çap olunub. Bir kitabın müəllifidir.

Günelin həyat hekayəsinin geridə qalan səhifələrini birlikdə vərəqləyirik. Deyir ki, ədəbiyyatşünaslıq, xüsusilə ədəbiyyat nəzəriyyəsinə olan rəğbətinin artmasında Bakı Slavyan Universitetinin və oradakı müəllimlərinin rolunu danmaq mümkün deyil. Xüsusilə adını qürurla çəkdiyi filologiya elmləri doktoru, professor Tahirə Məmmədin zəhmətini dönə-dönə minnətdarlıqla qeyd edir.

"2016-cı ildə həyatımın böyük dönüş nöqtəsi oldu. Tahirə Məmmədin irəli sürdüyü nəzəri müddəalar məni heyran etmişdi. Qəti qərar verdim ki, Azərbaycan ədəbiyyatı və ədəbiyyat nəzəriyyəsi sahəsində elmi tədqiqata başlayım. 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında çap olunan "Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları" adlı kitabımın elmi redaktoru da Tahirə Məmməd oldu. Bu tədqiqat işində tarixi və mədəni yaddaş qatlarının "Qətl günü" əsərində rolu araşdırılmış, Yusif Səmədoğlunun Vətən sevgisini romanın dərin qatlarında ifadə edilən mənaları tədqiq olunmuşdur", - deyə Günel xanım bildirdi. O həmçinin dedi ki, hazırda "Azərbaycan ədəbiyyatında felyeton janrının təşəkkülü və tipologiyası" adlı dissertasiya işi üzərində elmi araşdırmaları davam etdirir. Qeyd edək ki, ədəbiyyatşünaslıqda felyeton janrında yazılmış nümunələr tədqiqata az cəlb olunub. Bu janrın daha dərindən araşdırılıb nəzəri prinsiplər əsasında sistemləşdirilməsinə ciddi ehtiyac var. Günel Əhmədova məhz belə bir mövzu üzərində işləyir. O, felyeton janrının özünəməxsusluğu, bir mətbuat janrı kimi əhəmiyyəti, Azərbaycan ədəbiyyatında felyeton janrının tipologiyası kimi məsələləri tədqiq edərək bir sıra elmi yeniliklərə imza atır.

Günel Əhmədova elmi fəaliyyətindən əlavə, bədii yaradıcılıqla da məşğul olur, esse janrında əsərlər qələmə alaraq uğurlu nəticələr əldə edir. Qəlbinin, ruhunun dərinliklərindəki düşüncələrini bədii sözün köməyilə ifadə edən gənc yazar bir çox esse müsabiqəsində iştirak edərək diplom və mükafatlara layiq görülüb.

Günel deyir ki, ilk dəfə 11 yaşında olarkən qələmini sınayıb. "Günəş" jurnalının keçirdiyi müsabiqəyə qatılaraq birinci yerə sahiblənib. 2021-ci ildə Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən "Nizami Gəncəvi yaradıcılığı: mənəvi dəyərlər və vətənpərvərlik" mövzusunda esse müsabiqəsində yenə birinci, 2021-ci ildə Təhsil Nazirliyi Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Əziz Şuşa, sən azadsan!" adlı beynəlxalq yaradıcılıq müsabiqəsində ikinci, 2022-ci ildə Davam Gənclər Hərəkatının təşkilatçılığı ilə keçirilən "Qalib Azərbaycan xalqı!" adlı esse müsabiqəsində üçüncü yerə layiq görülüb.

Xalqımızın söz sənətinə, mənəvi dünyamıza olduqca dahi şəxsiyyətlər bəxş etdiyini qeyd edən gənc filoloq deyir: "Çalışıram ki, imzalar içində mənim də imzam olsun".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 31 dekabr (№ 288).- S.15.